**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**HAFİZ MƏHƏRRƏM OĞLU MUSAYEV**

# QLOBAL BEYNƏLXALQ CİNAYƏT KİMİ BEYNƏLXALQ TERRORÇULUĞA QARŞI MÜBARİZƏDƏ XÜSUSİ XİDMƏT ORQANLARININ (KƏŞFİYYAT VƏ ƏKS-KƏŞFİYYATIN) ROLU

**İXTİSAS: 5603.01 – «Beynəlxalq hüquq; insan hüquqları»**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI – 2014**

Dissertasiya işi Odlar Yurdu Universitetində yerinə yetirilmiş, müzakirə edilmiş və əsas müdafiəyə tövsiyə edilmişdir.

**Elmi rəhbərlər:** **Azərbaycan Respublikasının Əməkdar hüquqşünası, hüquq üzrə elmlər doktoru, professor M.N.ƏLƏSGƏROV.**

**hüquq üzrə elmlər doktoru, professor S.Ə.VƏLİYEV**

**Rəsmi opponentlər:** **hüquq üzrə elmlər doktoru R.F.MƏMMƏDOV**

**hüquq üzrə fəlsəfə doktoru İ.Z.EYVAZOV**

**Aparıcı təşkilat:** **AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu**

Dissertasiya işinin müdafiəsi «_10___» «___12___» 2014-cü il tarixdə saat «__________» Bakı Dövlət Universitetinin nəzdindəki FD.02.013 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris binası, 002 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» «_____________» 2014-cü il tarixdə göndərilmişdir.

**FD.02.103 Dissertasiya Şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru: Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat işinin aktuallığı.** Beynəlxalq təhlükəsizliyin təmin olunması, ilk növbədə, beynəlxalq qanunçuluq və hüquq qaydalarına əməl olunmasını nəzərdə tutur. Başqa sözlə, dünya birliyinin beynəlxalq terrorçuluğa qarşı mübarizədə nailiyyətləri dövlətlərin beynəlxalq qanunçuluq və hüquq qaydalarının təmin olunması üzrə qəbul edilən qərarları və həyata keçirilən tədbirlər sahəsində öz müsbət həllini tapır. İnsanlığa qarşı cinayətlər və təcavüz cinayətləri Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasına daxil edilir. Beynəlxalq cinayətlərə aid edilən beynəlxalq terrorçuluq da Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasına daxildir. Beynəlxalq Cinayət Məhkəməsinin Statutuna görə beynəlxalq cinayətlər, o cümlədən beynəlxalq terrorçuluq cinayətinə qarşı universal yurisdiksiya prinsiplərinin tətbiqi nəzərdə tutulur.

Beynəlxalq terrorçuluq cinayəti beynəlxalq aləmə və beynəlxalq təhlükəsizliyə çox ciddi təhdidlər yaradır. Terror təhlükəsi bütün bəşəriyyət üçün qlobal xarakter daşıyır və onunla yalnız birgə səylərlə mübarizə aparmaq səmərəli ola bilər. Bu səylər subregional, regional, milli və universal səviyyədə həyata keçirilir. Hazırda Birləşmiş Millətlər Təşkilatının ondan çox universal konvensiyası, Avropa Şurası və Avropa İttifaqının mühüm konvensiya, digər bəyannamə və protokolları əsasında praktiki olaraq dünyanın bütün regionlarında beynəlxalq terrorçuluğun qarşısının alınması sahəsində regional sistemlər müvəffəqiyyətlə fəaliyyət göstərir. Müasir dövrdə beynəlxalq terrorçuluğun dünyaya meydan oxuması öz təbiətinə görə qlobal xarakter daşıyır və buna görə də beynəlxalq birliyin cavabı da qlobal və uzunmüddətli xarakterə malik olmalıdır. Nə qədər güclü və qüdrətli olsa da, heç bir dövlət ayrılıqda beynəlxalq terrorçuluğa qarşı dayanmaq iqtidarında deyil. Buna əyani misal kimi Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin 11 sentyabr 2001-ci il faciəli terror hadisəsindən cəmi bir il əvvəl yaydığı məruzəsini göstərmək olar. Məruzədə qeyd olunurdu ki, 2000-ci ildə dövlət terrorçuluğu azalmış, terrorçu ölkə və qrupların beynəlxalq səviyyədə təcrid olunması prosesi güclənmiş, terrorçular isə məhkəmə qarşısında dayanmışlar. Lakin bu bəyanatın ardınca müdhiş terrorçuluq aksiyaları baş verdi. Bu gün bir çox siyasətçilər artıq etiraf edirlər ki, beynəlxalq terrorçu qüvvələr tərəfindən təhlükənin artması müəyyən dərəcədə həm qərbin, həm də şərqin aparıcı ölkələrinin xarici siyasət kursundakı səhvlərlə əlaqədar olmuşdur. Onlardan heç biri dünyada baş verən dəyişikliyin dərinliyini



lazımınca qiymətləndirməmişlər və bunun da nəticələrindən biri beynəlxalq terrorçuluğun artması olmuşdur.

Müasir siyasi elmlərdə mürəkkəb sosial-siyasi fenomen kimi terrorçuluğun təhlili üçün xüsusi metodologiya işlənilmişdir. Terror təzahürü bütün dövlətlər üçün xarakterikdir. Terrorçuluğun yeni növləri olan kimyəvi, bakterioloji və nüvə terrorçuluğu bəşəriyyətin XXI əsrdə normal yaşaması üçün bilavasitə ciddi təhlükə törədir. Atom enerjisi, gen texnologiyası, insan genetikası, nanotexnologiya, kompüter texnologiyası və s. barədə son dövrlərdə qəbul olunmuş qərarlar bəşəriyyət üçün nəzarət edilə bilməyən, əvvəlcədən nəticəsi bilinməyən, hətta sadəcə olaraq izah edilə bilməyən, bununla da yer üzərində həyatın mövcudluğu üçün təhlükə yaradan nəticələrə gətirib çıxara bilər. Bu texnologiyaların terrorçuların və ekstremistlərin əlinə düşməsinin nə qədər böyük təhlükə törətməsi tamamilə aydındır.

Terrorçuluğun müasir tədqiqatçılarından olan U.Uolker müasir terrorçuluğun çoxsaylı təzahür və səbəblərini göstərməklə, belə nəticəyə gəlir ki, bu təzahürlərdən çoxu mədəni ənənələrdən, cəmiyyətin sosial strukturundan və müxtəlif ölkələrin digər xüsusiyyətlərindən asılıdır. Hazırkı dövrdə digər birliklər, qeyri-hökumət təşkilatları və beynəlxalq strukturlarla ittifaqda olan milli azlıqlar daha güclü aksiyalar və güc təsiri həyata keçirə, o cümlədən güc tətbiq etmənin təşəbbüsçüsü kimi çıxış edə bilərlər. Bir tərəfdən, qüdrətli dövlətlər azsaylı xalqların nümayəndələrini və digər qrupları özlərinin geosiyasi rəqiblərinə qarşı yönəltməyi, digər tərəfdən, yerli radikallar öz maraqları üçün güclü dövlətlərin qarşıdurmasından istifadə etmək metodlarını mənimsəyirlər.

Bir qayda olaraq zəif inkişaf etmiş korporativ-bürokratik rejimlər özlərinin iqtisadi və siyasi problemlərini həll etmək üçün sərfəli vasitə kimi separatçılığa, millətçiliyə və militarizmə rəvac və üstünlük verirlər. «Azad rəqabət» və açıq sərhədlər yüksək texnika, qabaqcıl texnologiya və hərbi gücə malik ölkələr üçün «ikinci» və «üçüncü dünya» ölkələrini öz təsirləri altında saxlamaları üçün ideal mexanizmdir. Məlumdur ki, «qızıl milyard» ölkələrində yaşayan bir neçə yüz varlı ailənin nəzarəti altında olan sərvətin miqdarı dünyanın milyarddan çox yoxsul əhalisinin gəlirinə bərabərdir. Təkcə Amerika Birləşmiş Ştatlarının hərbi büdcəsi dünyada milyarddan çox aclıq həddində yaşayan, sivilizasiyanın adi elementlərindən olan içməli su və ibtidai təhsildən məhrum olan əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün kifayət ola bilərdi. Maliyyə möhtəkirliyi ilə əldə edilən gəlirə cəmi 0,1 faiz vergi qoyulması dünya əhalisinin böyük əksəriyyətinin səhiyyə və təhsil problemini həll edə bilər. Müasir dünya üçün lokal müharibələr və terrorçuluq təcrübəsinin birləşdirilməsi xüsusi təhlükə törədir. Onlar

güc tətbiq etmənin xüsusi növünə çevrilirlər. Onların xüsusiyyətləri kimi aşağıdakıları göstərmək olar:

- birincisi, qarşı duran tərəflər arasında hərbi əməliyyatların müxtəlif, lakin bir-biri ilə qarşılıqlı əlaqədə olan səbəb və əsasları vardır: qloballaşma subyektləri tərəfindən hərbi vasitələrlə hegemonluq siyasətinin davam etdirilməsi;

- ikincisi, asimmetrik müharibələrə qarşı duran tərəflərin zərbələrin «nöqtəvi» olmasına istiqamətlənməsi kimi oxşar tərəfi olsa da, bu mübarizənin üsul və vasitələrində keyfiyyətcə fərqlər də mövcuddur. Bütün hallarda zor tətbiq etmənin günahkarlarından çox, mülki əhali məhv edilir;

- üçüncüsü, bu müharibələr üçün qarşı duran tərəflər arasında gücün müxtəlif olması xarakterikdir (terrorçu təşkilatların hərbi potensialı Amerika Birləşmiş Ştatları, Rusiya və yaxud İngiltərə kimi dövlətlərin hərbi potensialından qat-qat aşağıdır);

- nəhayət, asimmetrik müharibələrdə əksər hallarda yalnız nəinki cəbhə xətti, eləcə də həmin məkanda hər hansı bir şəkildə lokallaşdırılmış hərbi əməliyyatlar səhnəsi olmur. Onlar üçün hərbi əməliyyatların nöqtəvi-şəbəkə quruluşu xarakterikdir. Hazırkı dövrdə həm terror aktları, həm də «missioner» müharibələr yer kürəsinin, demək olar ki, bütün nöqtələrində baş verir.

Belə bir fikrə gəlmək olar ki, asimmetrik müharibələrin baş verməsinin səbəbləri qismində şəbəkə cəmiyyətinin münasibətləri və quruluşunun inkişafını, yeni liberal dünya qaydalarının geoiqtisadi və geosiyasi ziddiyyətlərini ayırmaq lazımdır. Belə ki, burada legitim güc tətbiq etməyə və «sivilizasiyalılığa», inhisarçılığa qlobal oyunçular malik olurlar, bütün yerdə qalanlar isə onların müəyyənləşdirilməsinə görə «sivilizasiyanı dağıdanlar», «fundamentalistlər» və «terrorçular»dır. Silahların diffuziyası və sülh məhsulları fenomeni də mühüm rol oynayır. Burada ən xarakterik misal – müasir silahların ən güclü növü kimi informasiya şəbəkələrini göstərmək olar. Bundan əlavə, müasir dövrdə terror aksiyalarının resursu kimi içməli suya əlavə olunmuş gübrələrdən tutmuş, partlayıcı maddələrin daşıyıcısı vasitəsinə çevrilmiş radio idarəolunan oyuncaqlara qədər istənilən yüksək texnoloji obyektlər ola bilər.

Buradan nöqtəvi-şəbəkə şəklində güc tətbiq etmənin potensial qlobal xarakteri açıq-aydın görünür. Məhz buna görə də dissertasiya işində terror fəaliyyətinin yeni forma və üsullarının, ona qarşı qlobal və regional mübarizənin tədqiqinə xüsusi diqqət yetirilir. Bu deyilənlər nöqteyi-nəzərindən dissertasiya işində tədqiq olunan mövzu aktual olmaqla mühüm əhəmiyyət kəsb edir.



Dissertasiya işinin aktuallığının digər bir tərəfi Azərbaycan Respublikasının bu sahədəki fəaliyyəti ilə əlaqədardır. Belə ki, cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlıq siyasətinin əsasında dayanır. 12 noyabr 1995-ci il tarixli ümumxalq referendumu yolu ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyası və Azərbaycan Respublikası tərəfindən qəbul edilmiş digər normativ-hüquqi aktlar beynəlxalq hüquq normalarına hörmət prinsipi üzərində qurulmuşdur. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 10-cu maddəsində qeyd edilir ki, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.

Konstitusion statusla özünün qanunvericilik sistemini möhkəmləndirən dövlətimiz tərəfindən terrorizmlə mübarizə sahəsində də əməli fəaliyyət həyata keçirilmişdir. Ulu Öndər Heydər Əliyev 11 dekabr 2001-ci ildə həmin ilin 11 sentyabr terror aktları ilə əlaqədar olaraq Azərbaycan Respublikasında ABŞ səfirliyində keçirilmiş mərasimdə demişdir: «Üç ay bundan əvvəl, 11 sentyabrda Amerika Birləşmiş Ştatlarında, Nyu-Yorkda və Vaşinqtonda baş vermiş dəhşətli terror aktları təkcə Amerika Birləşmiş Ştatları xalqını deyil, eyni zamanda bütün dünayada sülhsevər insanları, o cümlədən Azərbaycan xalqını sarsıtdı. Bu hadisələr bizim hiddətimizə səbəb oldu və beynəlxalq terrorizmin və bütövlükdə beynəlxalq terrorizmin insan cəmiyyəti üçün necə təhlükəli olduğunu bir daha nümayiş etdirdi......

Bu gün mən bir daha bəyan edirəm ki, uzun illər terrorizmdən əziyyət çəkən və ona böyük zərər dəyən Azərbaycan xalqı həmişə terrorizm əleyhinə çıxış etmişdir və bu gün də harada olmasından asılı olmayaraq bütün dünyada terrorizmin kökünün kəsilməsinin tərəfdarıdır........ Biz terrorizmə, beynəlxalq terrorizmə «Yox» deyirik və bəyan edirik ki, biz həmişə bu şərlə mübarizə aparacagıq»[1].

**Problemin işlənilməsi səviyyəsi.** Xarici ölkələrdə, əsasən də Amerika tədqiqatlarında mərkəzi yeri beynəlxalq antiterror siyasətinin səmərəliliyinin müxtəlif aspektləri tutur. Siyasi elmlərin müxtəlif istiqamətləri çərçivəsində beynəlxalq terrorçuluğun və onun tərkib hissələrinin məzmunu və prinsiplərinə, terrorçuluğun artmasına təsir göstərən xarici və daxili amillərə aid problemlərin dəqiqləşdirilməsi, öyrənilən predmet barədə biliklərin toplanılması barədə məsələlər

[1] Ulu Öndər Heydər Əliyevin 11 dekabr 2001-ci ildə həmin ilin 11 sentyabr terror aktları ilə əlaqədar olaraq Azərbaycan Respublikasında ABŞ səfirliyində keçirilmiş mərasimdəki çıxışından.

müzakirə olunur. Bu tədqiqatlarda əsas yeri Amerika Birləşmiş Ştatlarının terrorçuluqla mübarizədə milli proqramı tutur. Amerika və Avropa ölkələrinin antiterror konsepsiyası struktur-funksional təhlil çərçivəsində çox ciddi tədqiqata məruz qalır. Xarici tədqiqatlarda antiterror siyasətinin praktiki olaraq həyata keçirilməsi məsələlərinə baxılarkən institusional yanaşma çox geniş istifadə olunur. Son dövrlərdə bütün dünya analitikləri tərəfindən terrorçuluğa qarşı mübarizənin psixoloji tərəflərinin tədqiqinə diqqət daha da gücləndirilmişdir. Elmi ədəbiyyatların təhlili göstərir ki, əksər müəlliflər müasir dövrün qlobal problemi kimi əsasən beynəlxalq terrorçuluğun konseptual problemlərinə toxunurlar.

Beynəlxalq təhlükəsizlik sistemində təhlükəsizliyin qlobal problemlərinin öyrənilməsində rus alimləri A.Q.Arbatov, O.N.Bıkov, V.Y.Vıbornov, A.K.Qlivakovski, A.A.Kokoşin, B.L.Prozarov, Q.V.Osipov və digərlərinin əsərlərində əsaslı nəticələr əldə edilmişdir. Mühüm politoloji ümumiləşdirmələr M.Q.Anoxin, Q.K.Aşin, Q.A.Belov, V.V.İlin, V.İ.Kovalenko, B.J.Krasnov, R.F.Matveyev, A.S.Panarina, E.A.Pozdnyakov, V.P.Puqaçev, V.A.Tişkov, D.M.Uşakov, P.A.Tsıqankov, O.F.Şabrova, A.U.Şutov, V.V.Ustinov, V.N.Kudryavtsev, E.Q.Lyaxov, İ.L.Trunov və digər alimlərin, eləcə də digər müəlliflərin kollektiv monoqrafiyalarında əldə edilmişdir.

Beynəlxalq terrorçuluğa həsr olunmuş tədqiqatlar arasında digər xarici ölkə alimləri F.Attari, O.Brinqa, J.Borrikan, K.Kempbell, B.Konforti, A.D'Amato, L.Qordotski, M.Herber, M.Hunela, M.Şerif Bassiuni, J.Meyo, C.Rayt, B.Ridel, Marta Krenşo, Con Hirson, M.Seycmen, Azərbaycan alimlərindən Ə.Əliyev, K.Səlimov, R.Sevdimalyev, F.Səməndərov, R.Məmmədov, S.Əsədov, Ş.Məmmədov, A.Hüseynov və digərlərinin əsərlərini göstərmək olar.

Hazırkı dövrdə terror təhlükəsinə qarşı dayanmağın mexanizminin öyrənilməsində sistem təhlilindən geniş istifadə etməklə fəal şəkildə fənlərarası tədqiqatlar aparılır. Etnik və etnokonfesional münaqişələr kontekstində terrorçuluğun öyrənilməsi tədqiqatların müstəqil bölməsinə çevrilmişdir. Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, müasir dövrün qlobal problemi kimi beynəlxalq terrorçuluq probleminə həsr olunmuş ədəbiyyatlarda kifayət qədər müxtəlif metodoloji yanaşmalar və tədqiqat prinsipləri istifadə olunur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Müasir terrorçuluğun məğzi və mənbəyinin təhlili, XX əsrin sonu XXI əsrin əvvəllərində terror fəaliyyətinin yeni forma və üsullarının tədqiqi, müasir terrorçuluğun siyasi, milli, irqi və dini tərəflərinin araşdırılması, beynəlxalq



terrorçuluğa qarşı mübarizənin qlobal və regional səviyyədə hüquqi əsaslarının tədqiqi, eləcə də beynəlxalq terrorçuluq əməlinin müasir beynəlxalq hüquq üzrə beynəlxalq cinayət kimi əsaslandırılması dissertasiya işinin əsas məqsədləridir.

Tədqiqatın **əsas vəzifələri** aşağıdakıların elmi həlli olmuşdur:

- beynəlxalq terrorçuluğun təsnifləşdirici əlamətlərinin müəyyənləşdirilməsi və beynəlxalq cinayət kimi beynəlxalq terrorçuluğun spesifik xüsusiyyətlərinin aşkara çıxarılması və yaranma mənbələrinin tədqiqi;
- beynəlxalq hüquq elmində beynəlxalq terrorçuluq cinayətinin konseptual anlayışının məzmununun müəyyən edilməsi və beynəlxalq hüququn beynəlxalq terrorçuluq cinayətinə münasibətdə tənzimləyici təsir vasitələrinin göstərilməsi;
- beynəlxalq terrorçuluqla mübarizədə beynəlxalq cinayət ədliyyə orqanlarının rolu və yerinin müəyyənləşdirilməsi;
- XX əsrin sonu XXI əsrin əvvəllərində terror fəaliyyətinin yeni forma və üsullarının aşkara çıxarılması;
- beynəlxalq terrorçuluğun milli, siyasi, dini, irqi və s. kimi ilkin şərtlərinin müəyyənləşdirilməsi və təhlil olunması;
- beynəlxalq terrorçuluğun amili kimi islamçıların beynəlxalq terror fəaliyyətinin öyrənilməsi;
- beynəlxalq terrorçuluğa və onun təzahürlərinə qarşı mübarizə sahəsində beynəlxalq təcrübənin tədqiqi;
- terrorçuluğa və onun təhlükələrinə qarşı strategiyanın təkmilləşdirilməsi üzrə tövsiyələrin işlənilməsi.

Aparılan tədqiqat çərçivəsində təhlilin obyekti beynəlxalq təşkilatların sənədləri, müxtəlif dövlətlərin terrorçuluqla mübarizə sahəsində milli proqramları, eləcə də dünyanın bir sıra dövlətlərinin terrorçuluğa qarşı mübarizə ilə məşğul olan xüsusi xidmət orqanlarının fəaliyyət istiqamətləri, terrorçuluqla mübarizədə xüsusi xidmət və hüquq-mühafizə orqanlarının qarşılıqlı əlaqəli fəaliyyətləri üzrə təcrübənin ümumiləşdirilməsidir.

**Tədqiqatın obyekti.** Dissertasiya işinin tədqiqat obyekti bir təzahür kimi beynəlxalq terrorçuluğun qarşısının alınması və ləğv edilməsi niyyəti ilə beynəlxalq hüquq normalarına uyğun qaydada dünya birliyi tərəfindən tənzimləyici təsir tədbirlərinin tətbiq olunması nəticəsində formalaşmış beynəlxalq hüquq münasibətləri, terrorçuluğun yeni forma və təzahürləri, beynəlxalq terrorçuluğa qarşı mübarizənin beynəlxalq, regional (o cümlədən Azərbaycan Respublikasında) səviyyədə hüquqi təminatıdır.

**Tədqiqatın predmeti.** Dissertasiya işinin predmeti beynəlxalq terrorçuluq əməlinin beynəlxalq cinayət kimi müəyyənləşdirilməsi ilə əlaqədar müasir beynəlxalq hüququn kompleks nəzəri və praktiki problemləri, beynəlxalq terror aktlarının səbəbləri, forma və təzahürlərindən asılı olmayaraq qarşısının alınması və Beynəlxalq Cinayət Məhkəməsi tərəfindən cəzalandırılmasının əsaslandırılmasıdır.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, bu dissertasiya işi Azərbaycan ədəbiyyatında nəzəri və praktiki rejimdə yerinə yetirilən ilk akademik tədqiqat olmaqla, beynəlxalq hüquq üzrə cinayət kimi beynəlxalq terrorçuluq əməlinin tədqiqini, eləcə də beynəlxalq cinayət ədliyyə orqanları tərəfindən beynəlxalq terrorçuluğun bir təzahür kimi ləğv olunması üçün həyata keçirilən tədbirləri əks etdirir. Dissertasiyanın elmi yeniliyi, eyni zamanda beynəlxalq terrorçuluğun beynəlxalq cinayət əməli kimi təsnifləşdirilməsi, eləcə də müəllif tərəfindən beynəlxalq terrorçuluqla mübarizə işində universal və regional beynəlxalq hüquq normalarının təkmilləşdirilməsi probleminin nəzəri cəhətdən əsaslandırılması, beynəlxalq terrorçuluğun və kiberterrorçuluğun bütün tərəfləri nəzərə alınmaqla, onlara yeni formada tərif verilməsi, Azərbaycan Respublikasında terrorçuluğun müxtəlif təzahürləri və onun maliyyələşdirilməsinə qarşı mübarizənin hüquqi əsaslarının tədqiqidir. Son nəticədə dissertasiyanın elmi yeniliyi aşağıdakı nəticələrlə ifadə edilmişdir.

Birinci. Beynəlxalq terrorçuluğun ləğv olunması işində beynəlxalq cinayət ədliyyə orqanı kimi Beynəlxalq Cinayət Məhkəməsinin rolunun göstərilməsi.

İkinci. XX əsrin sonu, XXI əsrin əvvəllərində qloballaşma şəraitində beynəlxalq terrorçuluğun yeni forma və təzahürlərinin aşkara çıxarılması və ona qarşı mübarizə üsullarının müəyyənləşdirilməsi.

Üçüncü. Beynəlxalq hüquq normalarına uyğun işlənilərək qəbul olunmuş qanunçuluq bazası əsasında Azərbaycan dövlətinin beynəlxalq terrorçuluqla mübarizədə həlledici rolunun sübut edilməsi.

Daha sonra, dissertasiya işində müəllif ölkə hüquq ədəbiyyatında ilk dəfə olaraq komparativ təhlil əsasında müasir dövrün qlobal problemi kimi beynəlxalq terrorçuluğun kompleks fundamental təhlilinə cəhd göstərmişdir. Bundan əlavə, dissertasiya işində XXI əsrdə bəşəriyyət üçün təhlükə olan terror fəaliyyətinin müxtəlif sferaları arasında qarşılıqlı əlaqələr sistemi və təbiəti açıqlanır. Eyni zamanda, beynəlxalq terrorçuluğun siyasi, milli, irqi və dini amilləri geniş təhlil olunur. Terror fəaliyyətinin və onun bəşəriyyətin mövcudluğu üçün törətdiyi təhdidlərin yeni forma və üsullarına baxılır.



Nəhayət, dissertasiyada beynəlxalq terrorçuluğun amili kimi radikal islamçılığın kompleks tədqiqi həyata keçirilir. Dövlətin antiterror siyasətinin işlənilməsinin metodologiyasının dəqiqləşdirilməsinə yeni yanaşmalar təklif olunur. Terrorçuluğa qarşı dövlət siyasəti sahəsində siyasi tənzimləmə mexanizmi bir sıra bu kimi amillərin nəzərə alınması əsaslandırılır: siyasi sistemin növü, siyasi rejimin məğzi, iqtisadi resursların vəziyyəti, terror təşkilatları tərəfindən təhlükənin daxili və xarici qarşılıqlı əlaqələri və nisbətləri.

**Müdafiəyə aşağıdakı əsas yeni elmi müddəalar çıxarılır:**

- Beynəlxalq hüququn xarici doktrinasının dərindən təhlili nəticəsində müəllif tərəfindən beynəlxalq terrorçuluğun hansı forma və təzahürlərdə özünü göstərməsinə baxmayaraq ona bütöv bir anlayış kimi baxılmasının zəruriliyi əsaslandırılır. Müasir beynəlxalq hüququn nəzəriyyə və praktikasında beynəlxalq terrorçuluq cinayətinin konseptual görünüşü müəllifə imkan vermişdir ki, onu beynəlxalq cinayət kimi qəbul etsin.

- Beynəlxalq cinayət əməli kimi *erga omnes* öhdəliyinin pozulması ilə əlaqədar olan beynəlxalq terrorçuluq cinayəti bütövlükdə bütün dünya ictimaiyyətinin maraqlarına toxunur. Bununla əlaqədar olaraq dissertasiya işində belə bir tezis əsaslandırılır ki, dünya birliyinin hər bir üzvünün beynəlxalq qanunçuluq və hüquq qaydalarını müdafiə etməsi hüquqi cəhətdən qanunauyğundur.

- *Delictum sui generis* kimi beynəlxalq terrorçuluq cinayətinin məğzi ikili keyfiyyətdə müəyyənləşdirilir. Birinci, insanlıq əleyhinə olan cinayət kimi (bu cinayət əməlinin fiziki şəxs tərəfindən törədildiyi hallardır), ikincisi, təcavüz cinayəti kimi (cinayət əməlinin törədilməsində dövlətin iştirak etdiyi hallardır). Hazırkı şəraitdə beynəlxalq terrorçuluğun xarakterik xüsusiyyətləri onun çoxplanlı, transmilli mütəşəkkil cinayətkarlıqla bilavasitə əlaqəli olması, cinayət yolu ilə əldə edilmiş maliyyə vəsaitlərinin yuyulması, silah alveri və ölüm yayan materialların qeyri-qanuni dövriyyəsidir. Bu vəziyyəti nəzərə almaqla siyasi, beynəlxalq-hüquqi, iqtisadi, diplomatik və hərbi vasitələri də daxil etməklə, qlobal və kompleks əsaslarla beynəlxalq terrorçuluğa qarşı mübarizədə dövlətlərin daha fəal, hərtərəfli əməkdaşlığı və qarşılıqlı fəaliyyəti zəruridir.

- Müasir beynəlxalq hüquq nöqteyi-nəzərindən beynəlxalq terrorçuluqla mübarizədə bütün mümkün vasitələrin işlənilməsi və tətbiqində beynəlxalq birlik qarşısında duran aşağıdakı məsələlərin zəruriliyinin əsaslandırılması: antiterror sahəsində qəbul olunmuş konvensiyaların müddəalarının yerinə yetirilməsi üzrə beynəlxalq

nəzarət mexanizminin səmərəli işləməsinə xüsusi diqqət yetirilməlidir ki, terrorçular tərəfindən mövcud hüquq müdafiə vasitələrindən sui-istifadə edilməsin və cəzanın labüdlüyü təmin olunsun; beynəlxalq terrorçuluqla mübarizə pərdəsi altında insan hüquqlarının pozulmasına yol verilməsin. Bu mübarizə qanunun aliliyinə hörmət, demokratik prinsiplər və dövlətin ərazi bütövlüyü prinsiplərinə əməl olunmaqla həyata keçirilməlidir.

- Bütün dünyada (Yaxın Şərq; İslam Konfransı Təşkilatının əhatə etdiyi regionlar; Avropa; Afrika; Amerika; Cənubi Asiya; Müstəqil Dövlətlər Birliyi sərhədləri məkanına daxil olan regionlar) beynəlxalq terrorçuluq cinayəti ilə mübarizə üzrə konvensiyalar əsasında yaradılmış regional sistemlər ayrı-ayrı terror aktlarına qarşı mübarizədə öz səmərəliliyini göstərmişdir. Bununla əlaqədar olaraq terrorçuluğa qarşı mübarizə üzrə Birləşmiş Millətlər Təşkilatı çərçivəsində ümuməhatəli konvensiya işlənilərkən regional mexanizmlərin nailiyyətlərindən fəal istifadə olunması zəruridir.

- Cinayət işləri üzrə ekstradisiya və qarşılıqlı hüquqi yardım institutlarına beynəlxalq terrorçuluq cinayətinin qarşısının alınmasında müasir beynəlxalq hüququn səmərəli tənzimləyici təsir vasitəsi qismində baxılması labüddür.

- Azərbaycan Respublikasının xarici siyasət sahəsində mövqeyinin mənəvi əsaslarının, eləcə də beynəlxalq terror aktlarına görə cəzanın labüdlüyü prinsipinin möhkəmləndirilməsi və ekstradisiya institutunun səmərəliliyinin gücləndirilməsi, xüsusilə də bu, Azərbaycan ərazisində terror aktı törədib onun sərhədlərindən kənarda gizlənən terrorçulara aid olduqda, müəllif məqsədəuyğun hesab edir ki, Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinə beynəlxalq terror aktı törətmiş Azərbaycan Respublikası vətəndaşının cəzalandırılması üçün Beynəlxalq Cinayət Məhkəməsinə verilməsini nəzərdə tutan əlavənin edilməsi məqsədəmüvafiqdir.

- XX əsrin sonu, XXI əsrin əvvəllərində terrorçuluğun təbiəti, onun forma və konkret təzahürləri dəyişmişdir. Ona görə də terror hərəkatlarının dövlət, cinayət, nüvə, informasiya terrorçuluğu, kiberterrorçuluq və bioterrorçuluq kimi növləri ilə mübarizənin gücləndirilməsi zəruridir.

Dissertasiya işində praktiki olaraq terror fəaliyyətinin təsnifatına daxil olan bütün növləri – dövlət terrorçuluğu və dövlət əleyhinə olan terrorçuluq, beynəlxalq və daxili terrorçuluq, ənənəvi və texniki, dini, irqi və separatçı terrorçuluq tədqiq olunur. Eyni zamanda, tədqiqatda müasir terror fəaliyyətinin əsas istiqamətlərinin (sosial, millətçi, irqçi və dini) ətraflı struktur təhlili aparılmışdır. Bütövlükdə,



dissertasiya işində analitik olaraq terror fəaliyyətinin təhlilinin üç səviyyəsinə baxılır: nəzəri-metodoloji, konseptual və texnoloji.

Məsələnin nəzəri-metodoloji bloku terrorçuluğun təhlilinə ümumi yanaşmanı və bu təhlilin səmərəliliyinə nail olunmasına imkan yaradan sistem yanaşmasını əhatə edir. Konseptual məsələlər blokunda adekvat dərk etmə və praktiki həll üçün terrorçuluq və demokratiyanın qarşılıqlı münasibəti göstərilir. Bir sıra politoloqlar bu gün dünyanın bir sıra ölkələrində, o cümlədən Yaponiya və Amerika Birləşmiş Ştatları kimi demokratik inkişaf etmiş ölkələrdə terrorçuluğun artmasını ictimai həyatın demokratikləşməsi ilə bağlayırlar. Lakin aparılan tədqiqat nəticəsində müəllif belə bir qənaətə gəlir ki, bu tamamilə yanlışdır. Müəllifə görə terrorçuluğun öyrənilməsi, dövlətin və cəmiyyətin gücü ilə ona qarşı dayanılmasında ən zəif işlənilmiş blok texnoloji blokdur. Müasir dövrdə terrorçuluqla səmərəli mübarizə yalnız ona qarşı yönəldilmiş tədbirləri deyil, eləcə də terrorçuluğun meydana gəlməsi və inkişafına şərait yaradan səbəblərin aradan qaldırılmasını nəzərdə tutur.

Dissertasiya işində Azərbaycan Respublikasında xüsusi xidmət orqanlarının və hüquq-mühafizə orqanlarının terrorçuluğa və separatçılığa qarşı səmərəli mübarizəsi, onların xarici ölkələrin müvafiq orqanları ilə qarşılıqlı əlaqəli fəaliyyəti, bu sahədə ölkədə mövcud olan qanunvericilik bazası və onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılması, Azərbaycan Respublikasının terrorçuluqla mübarizə sahəsində qoşulduğu beynəlxalq və regional konvensiyalar, müqavilələr və protokollar geniş şəkildə şərh olunur və onların yerinə yetirilməsi səviyyəsi qiymətləndirilir.

Dissertasiya işində belə bir nəticəyə gəlinir ki, Azərbaycan Respublikasında sabit siyasi vəziyyətin mövcudluğu, bütün növ cinayətkarlığa, o cümlədən terrorçuluğa qarşı səmərəli mübarizənin aparılması, digər bərabər şərtlər daxilində aşağıdakı üç amilin qarşılıqlı əlaqəli şəkildə səmərəli fəaliyyətindən asılı olmuşdur:

1. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev, hazırkı dövrdə isə Respublika Prezidenti cənab İlham Əliyev tərəfindən ölkənin iqtisadi, siyasi və sosial-mədəni sahələrinin modernləşdirilməsi və sistemli qaydada yenidən qurulması ilə əlaqədar dönmədən və mərhələlərlə həyata keçirilən tarazlaşdırılmış və dərindən düşünülmüş konsepsiya və praktiki tədbirlər;

2. Başlıca prinsipi xeyirxah qonşuluq, qarşılıqlı kömək və sosial mütəşəkkilliyin digər formaları olan *nomadik* sivilizasiyanın böyük və qədim ənənələrini qoruyub saxlayan və inkişaf etdirən köklü əhalinin müstəsna tolerantlığı;

3. Dövlətin daxili və xarici sabitliyinə təhdidlər yaradan hərəkətlərin vaxtında aşkara çıxarılması və neytrallaşdırılması sahəsində Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanlarının ardıcıl, səmərəli və operativ fəaliyyəti, həyata keçirdikləri preventiv tədbirlər və proflaktik işlər.

**Tədqiqatın nəzəri, normativ və metodoloji əsasları.** Tədqiqatın nəzəri əsası kimi, Azərbaycan və xarici ölkə tədqiqatçılarının müvafiq sahədə fundamental əsərləri, həmçinin Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və qəbul etdikləri normativ-hüquqi aktlarda problemlə bağlı irəli sürülən müddəalar və konseptual yanaşmalardan istifadə olunmuşdur. Dissertasiyanın nəzəri əsası kimi həmçinin ümumi beynəlxalq hüquq və onun tərkib hissəsi olan beynəlxalq cinayətkarlığa qarşı mübarizə sahəsində olan elmi işləmələrdən istifadə olunmuşdur. Eyni zamanda, dissertasiya işinin ümumnəzəri əsaslarının işlənilməsində bu və ya digər sahələrdə tədqiqatlar aparan Azərbaycan alimlərinin əsərlərindən də istifadə edilmişdir. Məsələn, M.N.Ələsgərov, R.Ə.Mehdiyev, M.F.Məlikova, Ə.İ.Əliyev, N.H.Əliyev, Z.A.Əsgərov, Ə.M.Həsənov, L.H.Hüseynov, H.K.Hüseynova, M.C.Qasımlı, S.T.Qəndilov, P.Q.Darabadi, R.F.Məmmədov, Ə.İ.Sadıqov, N.A.Səfərov N.H.Mehdiyev, R.K.Məmmədov və b.

Dissertasiyanın normativ əsasını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikası Prezidentinin Fərmanları, Azərbaycan Respublikasının və Müstəqil Dövlətlər Birliyi dövlətlərinin beynəlxalq terrorçuluqla mübarizə problemi üzrə normativ və qanunvericilik aktları, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələri, Birləşmiş Millətlər Təşkilatının konvensiya və müqavilələri, xarici antiterror proqramları, Beynəlxalq Cinayət Məhkəməsinin Statutu və s. təşkil edir.

Dissertasiya işinin metodoloji əsasını müasir elmin ümumi qəbul olunmuş elmi üsullar sistemi təşkil edir. Buraya müqayisəli-hüquqi, sistemli, statistik, məntiqi, empirik (müşahidə və müqayisə), struktur-funksional, komparativ, politoloji, geosiyasi təhlil, xüsusi (tarixi, sosioloji, politoloji, tipoloji) və nəhayət, hüquqşünaslıq elminin fərdi üsulları (hüquq normalarının şərhi) daxildir.

**Dissertasiya işinin praktiki əhəmiyyəti.** İşin praktiki əhəmiyyəti ondan ibarətdir ki, onun əsas müddəaları Azərbaycan Respublikasında antiterror siyasətinin həyata keçirilməsində istifadə oluna bilər. Tədqiqatda şərh olunmuş nəticələr hökumət orqanları və güc strukturlarının idarəetmə fəaliyyəti təcrübəsində nəzərə alına bilər.



Alınmış nəticə və təkliflər Azərbaycan Milli Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında elmi kadrların hazırlanması prosesində, ali məktəblərdə politologiya, beynəlxalq hüquq və cinayət hüququ fənlərinin tədrisində, eləcə də xüsusi xidmət orqanları və hüquq-mühafizə orqanları üçün kadrlar hazırlayan ixtisaslaşmış tədris müəssisələri sistemində tədris prosesində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Odlar Yurdu Universitetində yerinə yetirilmiş və bu sahədə ixtisaslaşmış mütəxəsislərinin iştirakı ilə keçirilən birgə iclasda əsas müdafiəyə tövsiyə olunmuşdur. Dissertasiyanın materialları üzrə əsas nəticələr Azərbaycan Respublikası və xaricdə nəşr edilən nüfuzlu elmi jurnallarda, o cümlədən konfrans materiallarında dərc olunmuşdur.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Dissertasiya işinin giriş hissəsində** tədqiq olunan mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın predmeti, məqsəd və vəzifələri qeyd olunur, tədqiqat işinin nəzəri və metodoloji əsasları, elmi yeniliyi və təcrübi əhəmiyyəti, müdafiəyə təqdim olunan yeni elmi müddəalar müəyyən olunur.

**Tədqiqat işinin birinci fəsli «Beynəlxalq terrorçuluq beynəlxalq cinayət kimi müasir dövrün qlobal problemidir»** adlanır və üç paraqrafdan ibarətdir.

Burada xüsusiyyətlərindən asılı olaraq beynəlxalq xarakterli cinayətlərin və beynəlxalq cinayətlərin təsnifedici əlamətlərinə baxılır və onların fərqli cəhətləri göstərilir. «Beynəlxalq cinayət» məfhumuna konseptual olaraq ya beynəlxalq hüquqazidd əməlin ciddi nəticəsi kimi, ya da istənilən dövlətin beynəlxalq birliyin həyat əhəmiyyətli maraqlarını «çəpərləməsi» kimi baxmaq olar. Beynəlxalq cinayətin başlıca özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, o, *erga omnes* öhdəliyinin müəyyənləşdirdiyi və hüquq normaları ilə qorunan ümumi maraqların müəyyən məsuliyyət formalarının yerinə yetirilməsini nəzərdə tutan normalarla təmin olunur.

Məlum olduğu kimi, beynəlxalq cinayət aktının törədilməsi beynəlxalq hüququn bütün subyektlərinin qanuni maraqlarına və onların hüquqlarına toxunur. Dünyanın bütün dövlətləri, hətta törədilmiş beynəlxalq cinayət bilavasitə ona aid olmayan dövlətlər belə,

dünya qanun və qaydalarının müdafiəsi uğrunda çıxış edə və beynəlxalq cinayətlərin törədilməsinin qarşısını almaq üçün mühakimə qaydasında tədbirlər həyata keçirə bilərlər. Beynəlxalq cinayətlərin aradan qaldırılmasında yalnız bu cinayətin ərazisində həyata keçirildiyi ayrıca dövlət deyil, bütün dünya birliyi maraqlıdır. Ona görə də bu məsələdə, ərazisində beynəlxalq cinayətin törədildiyi dövlətə hər hansı bir üstün status vermək düzgün deyildir.

Müasir beynəlxalq hüququn praktika və doktrinasının predmet təhlili nəticəsində belə bir nəticəyə gəlinir ki, beynəlxalq cinayətlərin təsnifləşdirici əlamətlərinin müəyyən olunmasında əsaslı çatışmazlıqlar mövcuddur. Beynəlxalq cinayətlərin təsnifləşdirici əlamətləri çərçivəsində elmi və praktiki maraq doğuran əsas məsələ Sülh və insanlıq əleyhinə olan cinayətlərin Kodeksi və Beynəlxalq Cinayət Məhkəməsinin yaradılması barədə 1998-ci Roma Statutunun mühüm istiqamətləndirici kateqoriyalarının müqayisəli təhlilidir. Burada əsas məsələ təqdim olunan problem üzrə beynəlxalq hüququn təkamülü və praktikasının təhlili deyil, daimi əsaslarla fəaliyyət göstərən beynəlxalq cinayət ədliyyə orqanının yaradılmasının nə qədər əhəmiyyətli olması faktının dərk edilməsidir. Belə bir orqanın yaradılması probleminə dəfələrlə Birləşmiş Millətlər Təşkilatında baxılmış, onun həlli ilə əlaqədar 1953-cü ildə xüsusi olaraq Beynəlxalq cinayət üzrə ədliyyə Komitəsi yaradılmış və həmin Komitə tərəfindən beynəlxalq Cinayət Məhkəməsinin göstərilən Statunun mətni hazırlanmışdır. Beləliklə, 45 ildən sonra 1998-ci ildə Romada Beynəlxalq Cinayət Məhkəməsinin Statutu imzalandı və onun qüvvəyə minməsi üçün tələb olunan 60 ratifikasiya olunmuş etimadnamə əldə edildikdən sonra o, artıq hüquqi qüvvəyə minmiş sənəd oldu.

Dissertasiya işində Birləşmiş Millətlər Təşkilatının ikinci məhkəmə orqanı olan Beynəlxalq Cinayət Məhkəməsinin roluna, onun səlahiyyətlərinə, prokurorluq inistutunun fəaliyyət istiqamətlərinə, xüsusi fond institutuna xüsusi diqqət yetirilir. Beynəlxalq Cinayət Məhkəməsinin Statutunun təhlili göstərir ki, Statutda bilavasitə Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasına aid olan cinayətlərin tərkibi məsələsinə ümumiyyətlə baxılmır və belə cinayətlərin təsnifatı Statuta əlavə kimi verilir. Bununla əlaqədar olaraq belə bir nəticəyə gəlinir ki, beynəlxalq cinayətlərin tərkibinin predmetik olaraq göstərilməsi Statuta əlavədə deyil, bilavasitə Statutun özündə təsbit olunsaydı, daha əhəmiyyətli olardı.

*Jus cogens* anlayışının və «beynəlxalq cinayət» anlayışlarının yaxın olması faktını və onların bir-birini örtməsinin real nöqteyi-nəzərini göstərməklə, işdə belə bir nəticəyə gəlinir ki, bu və ya digər



halda onlar beynəlxalq öhdəliklərin xarakteri ilə izah olunur. Bu sadəcə olaraq bir dövlətin digər dövlətə münasibətdə öhdəliyi deyil, universal nizama salınmış öhdəlikdir. Söhbət bütün dünya birliyi qarşısında öhdəlikdən, yəni *jus cogens*dən gedir.

Beynəlxalq terrorçuluq cinayətinin qarşısının alınması və ona qarşı mübarizə sahəsində Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi 13-dan çox konvensiya, bəyannamə və protokollar təhlil olunur və bu cinayətə qarşı mübarizədə onların əhəmiyyəti göstərilir. Burada beynəlxalq terrorçuluğa zəmin yaradan dini, irqi, milli, siyasi amillər təhlil olunur, onlardan hər birinin beynəlxalq terrorçuluğun meydana gəlməsində oynadığı rol açıqlanır. Dövlət terrorçuluğu, onun törədilməsinə rəvac verən şərait və amillər, dövlətin bu cinayəti himayə etməsinin səbəbləri araşdırılır və belə halların qarşısının alınması üçün dünya birliyinin görə biləcəyi tədbirlər planı təklif olunur. İşdə son dövrlərdə bir sıra dövlət və siyasi xadimlər tərəfindən çox tez-tez işlədilən «İslam fundamentalizmi» termini geniş təhlil olunur. Dissertasiya işində XX əsrin sonu, XXI əsrin başlanğıcında beynəlxalq terrorçuluğun əsas əlamətləri kimi aşağıdakılar müəyyənləşdirilir: mübarizənin xüsusilə son dərəcə kəskin formalarından istifadə etməklə, güc və hədə-qorxunun tətbiqi; siyasi rəqiblərinin zəiflədilməsi, siyasi məqsədlərə nail olunmasına yönəldilmiş olması; bilavasitə insanların həyatına təhlükə, idarə və təşkilatların fəaliyyəti, qeyri-legitimliklə əlaqədar ictimai təhlükənin yüksəldilməsi; terrorçu strukturların və onların fəaliyyətinin son nəticə etibarilə səmərəliliyinin təmin edilməsi məqsədilə onun konspirasiya (gizlilik) üsullarından istifadə edilməsi; insanların həyat və sağlamlığına qəsd etmək vasitəsilə dolayısı yolla siyasi nəticələrə nail olmaq üsulu.

Dünyanın müxtəlif alimləri, dövlət orqanları tərəfindən beynəlxalq terrorçuluğa verilən təriflərin ətraflı təhlili nəticəsində dissertasiya işində beynəlxalq terrorçuluğa daha dolğun tərif verilir.

Beynəlxalq terrorçuluğun mühüm qollarından biri və ondan heç də az təhlükəli olmayanı dini ekstremizmdir. Dini ekstremizmin ən qorxulu cəhətlərindən biri ondan ibarətdir ki, o, dinlərarası anlaşılmazlıqları özünəməxsus, təhrif olunmuş formada təqdim edir və qızışdırır, dini zəmində müxtəlif millətlər və xalqlar (eyni millətin müxtəlif təfəkkürlü qrupları) arasında nifaq salır, dinlərarası dözümsüzlük yaradır ki, bu da nəinki ayrı-ayrı ölkələrə, hətta bəşər sivilizasiyasına təhlükə yaradır. Bu təhlükə bu gün Azərbaycanda da real şəkildə mövcuddur. Bununla əlaqədar olaraq belə nəticəyə gəlmək olar ki, respublikamızda dini ekstremizmə qarşı mübarizənin səmərəliliyini aşağı salan amillərdən biri mövcud qanunvericilik

bazasının dövrün tələblərinə cavab verməməsidir. Belə ki, Azərbaycan Respublikasının hazırda qüvvədə olan cinayət qanunvericiliyində qadağan olunmuş təşkilatlarda üzvlüyə və digərlərində bu fəaliyyətə cəlb etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmur. Cinayət Məcəlləsində milli, irqi və dini ayrıseçkilik, ekstremist xarakterli materiallar yaymağa görə nəzərdə tutulan cəza tədbirləri isə, fikrimizcə, belə hərəkətlərin dövlətçiliyə vurduğu zərbəyə adekvat deyildir.

Dissertasiya işində beynəlxalq terrorçuluğun ən qorxulu növlərindən biri olan kiberterroçuluğun əsas tərəflərinə baxılır və kiberterroçuluğa yeni tərif verilir. XX əsrin sonu və XXI əsrin əvvəllərində terror fəaliyyətinin forma və üsulları tədqiq olunur və əsas diqqət beynəlxalq terrorçuluğun ən müasir formaları olan bomba, nüvə, bioloji, kiberterrorçuluğa yetirilir və onlara qarşı mübarizə üsulları təklif olunur.

**Tədqiqat işinin ikinci fəsli «Beynəlxalq terrorçuluğa qarşı mübarizənin hüquqi aspektləri»** adlanır və üç paraqrafdan ibarətdir.

Burada terrorçuluğa qarşı mübarizənin prinsip və üsullarına baxılır, bu mübarizədə beynəlxalq hüququn reqlamentləşdirici rolu əsaslandırılır. Dünya ölkələrinin xüsusi xidmət orqanlarının antiterror əməliyyatlarının həyata keçirilməsində ümumi və fərdi yanaşma prinsipləri əlaqəli şəkildə təhlil olunur. Beynəlxalq terrorçuluğa qarşı mübarizə dünya ictimaiyyətindən hüquqi, siyasi, iqtisadi, diplomatik və hərbi səylər də daxil olmaqla, bu problemə kompleks yanaşmanı tələb edir. Bu mübarizədə beynəlxalq terrorçuluğun çirkli pulların yuyulması, narkotik vasitələrin yayılması, silah-sursatın, kimyəvi, bioloji və digər materialların qanunsuz dövriyyəsi ilə məşğul olan transmilli mütəşəkkil cinayətkar qruplarla sıx əlaqədə olması faktorları da nəzərə alınmalıdır.

Terrorçuluğa qarşı mübarizənin əsas prinsipləri kimi aşağıdakılar qəbul olunur: qanunilik, terrorçuluğun qarşısının alınması üçün birinci dərəcəli tədbirlər, cinayətkarların məsuliyyətə cəlb edilməsinin labüdlüyü, terrorçuluq aksiyaları nəticəsində təhlükəyə məruz qalmış şəxslərin insan hüquqlarının müdafiəsi, terrorçulara qarşı minimum güzəştlərin tətbiqi, əks-terror əməliyyatlarının keçirilməsi zamanı cəlb olunmuş qüvvə və vasitələrə vahid rəhbərliyin bir mərkəzdən həyata keçirilməsi və s. Cinayətin bu növünə qarşı qanunların gücləndirilməsi də ən mühüm məsələlərdən biri hesab olunur.

Fikrimizcə, terrorçuluğa qarşı mübarizə prinsiplərinin qanunvericilikdə təsbit olunması çox mühüm əhəmiyyət kəsb edir. Belə ki, məhz beynəlxalq cinayətin bir növü olan beynəlxalq terrorçuluğa qarşı mübarizədə həddən artıq kəskin dövlət tədbirlərinin həyata



keçirilməsi, qanunçuluqdan kənara çıxma dövlətə qarşı etibarın aşağı düşməsinə, beynəlxalq sülhün və təhlükəsizliyin sarsılmasına, beynəlxalq birliyin maraqlarının pozulması və s. kimi əks səmərəyə gətirib çıxara bilər. Terrorçuluğun artmasına əngəl törətmək və ona qarşı daha müvəffəqiyyətlə mübarizə aparmaq üçün mühüm şərtlərdən biri də bu sahədə milli (dövlətdaxili) qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılmasıdır. Bu sahədə müvafiq dəyişikliklər və əlavələr, ilk növbədə, cinayət qanunvericiliyində həyata keçirilməlidir. Terrorçuluğa qarşı mübarizə probleminin həllində beynəlxalq hüquq normalarına gəldikdə, qeyd etmək lazımdır ki, antiterror aksiyaları ilə əlaqədar konkret situasiyalara aid fəaliyyət taktikaları beynəlxalq hüquqla reqlamentləşdirilmir. Bu onunla əlaqədardır ki, konkret halda şablon planlarla hərəkət etmək bütün hallarda səmərəli ola bilməz. Ona görə də beynəlxalq hüquqi sənədlərdə terrorçulara qarşı hərəkətin hazır «qaydaları» yoxdur və ola da bilməz. Lakin onlar belə hərəkətlərin hüquqi əsaslandırılmasını özündə birləşdirir, eləcə də həmin hərəkətlərin mümkün, hətta mütləq olduğu situasiyaları müəyyənləşdirirlər.

Terrorçuluğa qarşı mübarizənin taktika və texnologiyasına gəldikdə isə qeyd etmək lazımdır ki, bunlar hər bir antiterror xidməti üçün özünəməxsus qaydalardır. Həmçinin bu taktika və texnologiyalar hər bir xüsusi xidmət orqanı tərəfindən çoxillik praktiki fəaliyyət nəticəsində işlənilmiş olur, heç vaxt açılıb söylənilmir və gizli saxlanılır. Buna baxmayaraq bir sıra ölkələrin, məsələn, Amerika Birləşmiş Ştatları, İsrail, Fransa, Almaniya Federativ Respublikası və s. ölkələrin xüsusi xidmət orqanlarının antiterror əməliyyatlarının həyata keçirilməsində ümumi prinsiplər də mövcuddur.

Terrorla mübarizədə mühüm məsələlərdən biri də ondan ibarətdir ki, terror təhlükəsi və real terrora məruz qalmış xarici dövlətlərin bu sahədə təcrübəsi öyrənilməli və sonradan cəmiyyətin xeyrinə istifadə olunmalıdır. Qərbi Avropanın siyasi rəhbərləri və Amerika Birləşmiş Ştatları terrora qarşı əks təsiri və mübarizə strategiyasını ümumdövlət vəzifələrinin vacib bir hissəsi hesab edirlər. Bu sahədə əsas fəaliyyət istiqamətləri hüquqi bazanın təkmilləşdirilməsinə, müvafiq orqanlar arasında qarşılıqlı əlaqənin gücləndirilməsinə, terror problemi ilə məşğul olan xüsusi dəstələrin yaradılmasına, xüsusi xidmət orqanlarının şəxsi heyətinin texniki təminatının yaxşılaşdırılmasına yönəldilməlidir.

Terrorla mübarizədə bir çox qərb dövlətlərinin siyasəti aşağıda qeyd olunan prinsiplərə söykənir: terrorçulara heç bir güzəşt edilməməsi, terrorçuluğa dəstək verən dövlətlərə maksimum təzyiq göstərilməsi, terrorçuları cəzalandırmaq üçün qüvvə və vasitələrdən tam

istifadə olunması, həmçinin hərbi gücdən istifadə etməklə digər dövlətlərə yardım göstərilməsi.

Terrorla mübarizə proqramı aşağıdakıları özündə birləşdirir: terror və mütəşəkkil cinayətkarlığa qarşı mübarizəni əks etdirən beynəlxalq konvensiyalar; terrora qarşı həyata keçirilən inzibati və rejim tədbirləri; terror hərəkətlərinin qarşısını almaq məqsədilə həyata keçirilən xüsusi əməliyyat-axtarış və texniki mühafizə; bütün ölkələrin xüsusi xidmət orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsi.

Mübarizənin əsas şərtlərindən biri də bütün qeyri-qanuni hərbiləşdirilmiş və silahlı qruplaşmaların ləğvindən ibarətdir. Terror və ekstremizm üçün mənbə hesab olunan sosial təzyiqlərin, qarşıdurmaların aradan qaldırılması ictimaiyyət arasında olan hörmətli şəxslərin köməyilə də həyata keçirilə bilər. Terrorçuluğa qarşı səmərəli işlər görmək bir sıra təşkilati-əməli tədbirlərin işlənilməsi və həyata keçirilməsini tələb edir. İlk növbədə, terrorçuluqla mübarizə taktikası təkmilləşdirilməli, hələ terrorçularda olmayan elmi-texniki nailiyyətlər xüsusi xidmət və hüquq-mühafizə orqanlarının fəaliyyətində tətbiq olunmalı, antiterror koalisiyasına daxil olan bütün tərəflər öz üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməlidirlər.

Terrorçuluqla mübarizə sahəsində fəaliyyətin daha səmərəli olması üçün milli antiterror komissiyalarının yaradılması mühüm əhəmiyyət kəsb edə bilər. Belə komissiyalar bu istiqamətdə dövlət icra orqanlarının siyasi, xüsusi, sosial-iqtisadi və digər tədbir və hərəkətlərini müəyyənləşdirə və əlaqələndirə bilər.

Tədqiqat işində Avropa İttifaqı ölkələrinin, «səkkizlər qrupu»nun, Müstəqil Dövlətlər Birliyinin, NATO ölkələrinin antiterror fəaliyyəti sahəsində normativ sənədləri təhlil olunur, onlardan hər birinin müsbət və mənfi tərəfləri qeyd edilir. Bu fəsildə eyni zamanda dünyanın müxtəlif qabaqcıl ölkələrinin xüsusi xidmət orqanlarının (kəşfiyyat və əks-kəşfiyyat orqanlarının) terrorçuluqla mübarizə üsulları araşdırılır. Daha sonra, beynəlxalq terrorçuluq cinayətinə qarşı regional mübarizədə əks-kəşfiyyatın rolu geniş şərh olunur. Qeyd edilir ki, terrorçuluğa qarşı mübarizədə tərəfdaş ölkələrlə əlaqələrin dinamik inkişafı nəzərə alınmaqla, Analitik İnformasiya Fəaliyyəti xüsusi xidmət orqanları arasında olan əlaqələrin məlumat mübadiləsi ilə məhdudlaşmayaraq, gələcəkdə birgə operativ tədbirlərin keçirilməsinə və əməkdaşlığın səmərəli inkişafına xidmət etmiş olar.

Xüsusi olaraq qeyd edilir ki, terrorçuluğa qarşı mübarizədə ikili standartlar olmamalıdır. Belə ki, terrorçuluğa qarşı mübarizədə ikili standartların tətbiq olunması mübarizəni səmərəsiz edir. Azərbaycan Respublikası və onun müttəfiqləri göstərilən məsələyə ümumi



prinsiplərdən yanaşırlar. Terrorçulara və onların tərəfdarlarına, sponsorlarına sığınacaq verilməsi cinayətlərə bəraət vermək deməkdir. Bu addımlar antiterror koalisiyası üzvlərinin birliyinə xələl gətirə və onlar arasında etibarlı münasibətləri poza bilər. Ancaq son illərin hadisələri onu göstərir ki, artıq bir çox ölkələr terrorçuların hədəfinə çevrilərək, ikili standartların ölümcül təhlükəsi ilə üzləşmişlər.Terrorçuluğun qarşısının alınması üçün əsas istiqamətlər özündə aşağıdakıları əks etdirməlidir: konkret situasiyadan çıxış edərək mümkün subyektlərin müəyyənləşdirilməsi məqsədilə terrorçuluğun fəallığının proqnozlaşdırılması; cəmiyyətdə terrorçuluğun inkişafı üçün mövcud təzahürlərin aradan qaldırılması; dövlət və ictimai xadimlərə qarşı yönəlmiş terror aktlarını həyata keçirmək niyyətində olan və terror fəaliyyətini maliyyələşdirən şəxslərin aşkarlanaraq təqsirkarların saxlanılması; terrorçu fəaliyyətin qarşısının alınması məqsədilə beynəlxalq təşkilatların səmərəli qarşılıqlı əməkdaşlığı.

Hüquqi reqlamentləşdirmə – özündə terrorçuluqla mübarizədə kompleks tədbirləri əks etdirməklə, vahid konsepsiyaya əsaslanaraq, antiterror fəaliyyəti subyektlərinin hüquqlarının qorunmasına yönəldilməlidir.

**Tədqiqat işinin üçüncü fəsli «Azərbaycan Respublikasında terrorçuluğa qarşı mübarizə sisteminin yaradılması»** adlanır və iki paraqrafdan ibarətdir. Bu fəsil Azərbaycan Respublikasında beynəlxalq terrorçuluğa qarşı mübarizədə xüsusi xidmət orqanlarının taktika və strategiyasına və bu mübarizənin hüquqi təminatına həsr olunmuşdur. Burada terrorçuluğa qarşı mübarizədə xarici xüsusi xidmət orqanlarının və hüquq mühafizə orqanlarının qarşılıqlı fəaliyyəti sahəsində təcrübəsi ümumiləşdirilir.

Azərbaycan Respublikasının qlobal antiterror koalisiyasında fəal iştirakı ölkə ərazisinin beynəlxalq terror təşkilatlarının maraqları üçün istifadə olunmasına yol verməmək üçün rejim tədbirlərinin gücləndirilməsini tələb edir. Digər tərəfdən, ölkədə baş verən demokratik proseslər, dövlətimizin Avropa Şurasına daxil olması, insan hüquqlarının müdafiəsi sahəsində öhdəliklərin yerinə yetirilməsi vacibliyi Azərbaycan Respublikasının vətəndaşları kimi, ölkəmizdə əcnəbilərin də hüquq və azdalıqlarının qorunmasının zəruriliyini tələb edir.

Azərbaycan Respublikası təhlükəsizlik orqanları digər ölkələrin təhlükəsizlik qurumları ilə sıx əməkdaşlıq edərək terrorçu təşkilatların fəaliyyətlərinin qarşısının alınmasında, terrorçuların axtarışında, onların maliyyə və narkotik dövriyyə kanallarının bağlanılmasında öz mühüm rolunu oynamaqdadır.

Azərbaycan Respublikası tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə əsasən terrorçuluğa qarşı mübarizə sahəsində xarici dövlətlərlə, onların hüquq-mühafizə və xüsusi xidmət orqanları ilə, habelə terrorçuluğa qarşı mübarizə aparan beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Terrorçuluğa qarşı mübarizə sahəsində istər universal, istərsə də regional təşkilatlar səviyyəsində əməkdaşlığı gücləndirməklə, dövlətimiz indiyədək terrorçuluğa qarşı mühüm beynəlxalq universal və regional konvensiyalara qoşulmuş, terrorçuluğa, mütəşəkkil cinayətkarlığın digər növlərinə qarşı mübarizəyə dair kifayət qədər ikitərəfli müqavilələr imzalamışdır.

Avropa Şurasının Pulların yuyulmasına qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) 18-ci plenar iclasında qəbul olunmuş qərarla əlaqədar Milli Bankın rəhbərliyi altında Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlər üzrə Ekspertlər Qrupu tərəfindən xüsusi «Aralıq Hesabatı» hazırlanmış və MONEYVAL-ın Katibliyinə təqdim edilmişdir.

Nəzərə almaq lazımdır ki. terrorçu və ekstremist təşkilatların əsas maliyyə mənbəyi narkotik maddələrin qeyri-qanuni dövriyyəsindən formalaşır. Bu baxımdan da narkotik maddələrin yayılması kanallarının bağlanması və narko qrupların üzvlərinin zərərsizləşdirilməsi çox vacibdir. Bu nöqteyi-nəzərdən Azərbaycan Respublikası təhlükəsizlik orqanlarının fəaliyyəti digər xüsusi xidmət orqanlarına nümunə ola bilər.

**Tədqiqat işinin nəticə hissəsində** aşağıdakı bir sıra mühüm nəticələr əldə edilmişdir:

1. Aparılmış tədqiqatın nəticələri birmənalı olaraq təsdiq edir ki, beynəlxalq birliyin beynəlxalq terrorçuluq cinayətinə qarşı birgə mübarizə aparması zəruridir. Beynəlxalq cinayət kimi beynəlxalq terrorçuluq *delictum sui generalis* qismində beynəlxalq sülh və təhlükəsizlik üçün təhlükə yaradır. Bütövlükdə, bütün dünya birliyinin marağına toxunmaqla, beynəlxalq terrorçuluq cinayəti *erga omnes* beynəlxalq öhdəliyinin pozulmasına gətirib çıxarır. Beynəlxalq terrorçuluq cinayəti terror aktlarında iştirak etmiş dövlətlərə qarşı sanksiyalar tətbiq etmək üçün əsaslar yaradır və beynəlxalq cinayət hüququ sistemi çərçivəsində terror cinayəti əməlini törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasının labüdlüyünü nəzərdə tutur.

2. Beynəlxalq hüquq bütöv və mükəmməl bir sistem kimi beynəlxalq terrorçuluq cinayətinə qarşı lazımi səmərəli təsir vasitələrinin həyata keçirilməsini nəzərdə tutur. Beynəlxalq hüququn



beynəlxalq terrorçuluğa qarşı ümumqəbulolunmuş tənzimləyici təsir vasitəsi kimi cinayətkarların verilməsi (ekstradisiya) institutu və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım institutu çıxış edir. Hər iki üsul eyni dərəcədə səmərəlidir və onların tələblərinin ciddi rejimdə lazımi səviyyədə gözlənilməsi dünya birliyinə beynəlxalq terrorçuluğun ləğv edilməsi sahəsində zəruri köməklik göstərir.

3. Beynəlxalq terrorçuluqla mübarizədə üstün yeri beynəlxalq cinayət ədliyyə orqanları tutur. Birləşmiş Millətlər Təşkilatı ilə əlaqədar olan və beynəlxalq ədalət mühakiməsinin daimi və müstəqil orqanı kimi Beynəlxalq Cinayət Məhkəməsinin yaradılması beynəlxalq cinayət hüququ sisteminə bütövlük və tamlıq xarakteri vermişdir.

4. Beynəlxalq Cinayət Məhkəməsinin Statutunu və onun beynəlxalq cinayətlərə görə ədalət mühakiməsini həyata keçirməsi prinsiplərinin tam təhlili əsasında belə bir nəticəyə gəlinir ki, ərazisində dəfələrlə digər dövlətlər, xüsusilə də Ermənistan tərəfindən terror əməlləri törədilmiş Azərbaycan Respublikasının Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasını qəbul edərək Beynəlxalq Cinayət Məhkəməsinin Statutuna qoşulması məqsədəuyğun olardı.

5. Aparılmış tədqiqat nəticəsində Qərbin hərbi strateqlərinin dördüncü nəsil müharibədə hərbi əməliyyatların əsas asimmetrik komponentləri kimi terrorçuluq və əks-terrorçuluq strategiyasına istinad etmələrinin məqsədəuyğunluğu təsdiq olunur.

6. Dissertasiya işində aparılmış tədqiqatlar belə nəticəyə gəlməyə əsas verir ki, XIX əsrin axırlarından başlayaraq müasir dövrədək terrorçuluğun beş qlobal dalğasını ayırmaq olar: 1880-cı illərdə Rusiya, Avropa, daha sonra Şimali Amerikada anarxizmin yayılması ilə əlaqədar; XX əsrdə geniş vüsət almış milli-azadlıq hərəkatları və müstəmləkəçilik əleyhinə çıxışlarla əlaqədar; 1970-ci illərdə «yeni sol» ekstremistlərin fəaliyyətinə aid olan hadisələrlə əlaqədar; 1970-ci ilin sonlarından başlamış və bu günədək davam edən qloballaşma ilə əlaqədar; dini terror.

7. Terrorçuluğun meydana gəlməsi tarixinin təhlili nəticəsində dissertasiya işində belə bir nəticə əldə edilmişdir ki, texniki şəraitlə əlaqədar olaraq terrorçuluğun meydana gəldiyi eramızdan əvvəl III minillikdən başlayaraq XVIII-XIX əsrlərə qədər onun bir sistem halına çevrilməsi mümkün olmamışdır. Terrorçuluğun yeni, daha mütəşəkkil və amansız növünün meydana gəlməsinə texniki tərəqqi, ilk növbədə isə partlayıcı maddələrin (dinamitin kəşfi), kütləvi informasiya vasitələrinin, eləcə də informasiyaların ötürülmə vasitələrinin (teleqraf) inkişafı səbəb olmuşdur. Bunlar terror aktlarının təbliğatının səmərəsini

və yeni terror təşkilatlarının yaradılması təcrübəsini bir neçə dəfə artırmışdır.

8. Aparılmış tədqiqatlar əsasında belə bir nəticə əldə edilmişdir ki, beynəlxalq terrorçuluğun əsas əlamətləri aşağıdakılardır: mübarizənin xüsusilə son dərəcə kəskin formalarından istifadə etməklə, güc və hədə tətbiq etmək; siyasi rəqiblərinin zəifldədilməsi, siyasi məqsədlərə nail olunmasına yönəldilmiş olması; bilavasitə insanların həyatına təhlükə, idarə və təşkilatların fəaliyyəti, qeyri-legitimliklə əlaqədar ictimai təhlükənin artması.

9. Dissertasiya işində belə bir nəticə əldə edilmişdir ki, beynəlxalq terrorçuluq qloballaşma prosesi ilə əlaqədardır. O, ona görə həqiqətən beynəlxalqdır ki, beynəlxalq münasibətlərin yenidən çox güclü qurulması prosesinə uyğun gəlir. Siyasət, iqtisadiyyat, maliyyə, məlumat axını ilə yanaşı, terrorçuluq da transmilli səviyyəyə qalxmışdır.

10. Aparılmış tədqiqat nəticəsində məlum olmuşdur ki, həm Qərbi, həm də Şərqi Avropada və Müstəqil Dövlətlər Birliyinin Avropa hissəsində siyasi hüquqların dərəcəsi nə qədər yüksəkdirsə, orada terrorçuluğun səviyyəsi də aşağıdır. Lakin Şərqi Avropa barədə bunu təsdiq etmək olmaz; belə ki, bu ölkələrin hamısında siyasi hüquqların səviyyəsi yüksək deyildir. Bunu belə şərh etmək olar: hüquq siyasi mədəniyyətin kifayət qədər qiymətli əlamətidir, ona görə də hüququn pozulması etiraz davranışı, o cümlədən onun ən kəskin forması olan terrorçuluqda özünü göstərir.

11. Mühüm məsələlərdən biri də nüvə terrorçuluğuna yol verilməməsi və ona qarşı hərtərəfli mübarizə tədbirlərinin həyata keçirilməsidir. Hesab edirik ki, nüvə materiallarının qorunması və onlar üzərində nəzarətin qabaqlayıcı tədbirlərinə, partladıcı nüvə qurğularının axtarılması və neytrallaşdırılması, böhran situasiyaları üzərində nəzarət üzrə prosedurlar hazırlanmalı və zəruri texniki vasitələr yaradılmalıdır.

12. Terrorçuluğun qorxulu təzahürlərindən biri də müasir informasiya-telekommunikasiya texnologiyalarından istifadə etməklə həyata keçirilən kibercinayətkarlıqdır. Beynəlxalq birlik hazırda nəinki bu təhlükə ilə mübarizə yollarını axtarır, həm də bu məsələyə vahid yanaşma üsullarının işlənilməsi prosesi ilə məşğuldur. Kiberterrorçuluğa verilmiş müxtəlif müəyyənləşdirmələrin, kiberterrorçuluğun məqsəd və mahiyyətinin təhlili nəticəsində belə bir nəticəyə gəlinir ki, kiberterrorçuluğa belə bir tərif verilməsi daha məqsədəuyğun olardı: *«Kiberterrorçuluq*-kibernetik məkandan və ümumdünya kompüter şəbəkəsindən istifadə etməklə, cəmiyyət üçün nəzərdə tutulmayan məlumatların korlanması, pozulması, kənar edilməsi, təhrif olunması, terror qruplarının bir anda



maliyyələşdirilməsinin həyata keçirilməsi və bu əsasda cəmiyyəti qorxutmaq və ya ruhi əzab vermək yolu ilə dövləti, beynəlxalq təşkilatları və yaxud fiziki şəxsləri istənilən qərarı qəbul etmələri və ya etməmələrinə təsir göstərilməsidir».

13. Yuxarıda deyilənləri ümumiləşdirərək, belə nəticəyə gəlmək olar ki, kiberterrorçuluğun nəticələri də beynəlxalq terrorçuluğun digər növləri kimi dünya birliyi üçün çox böyük bəlalar törədə bilər və buna görə də ona qarşı durmaq üçün bütün texniki vasitələrdən istifadə etməklə, kompleks yanaşma işlənib hazırlanmalıdır. Burada terrorçuluğu qidalandıran maliyyə mənbələrinin kəsilməsi hakim mövqe tutur. Bunun üçün bütün ölkələrdə vahid yanaşma və standartlar tətbiq olunmalı və ikili standartlara yol verilməməlidir. İlk növbədə, pul köçürmələrinin monitorinqi keçirilməli, terrorçuluqda və ya ona dəstək verməkdə şübhəli bilinən şəxslərin və təşkilatların maliyyə vəsaitlərinin hərəkəti barədə dövlətlər arasında intensiv informasiya mübadiləsi aparılmalıdır.

14. Heç bir vəchlə imkan vermək olmaz ki, kütləvi informasiya vasitələri terrorçuların silahına və alətinə çevrilsin. Çox hallarda jurnalistlərin işə qarışması girovların və xüsusi xidmət orqanları əməkdaşlarının taleyində fəlakətli rol oynayır. Terrorçulara efir vaxtı və qəzet səhifələrində yer verməklə, kütləvi informasiya vasitələri onların tələblərini qanuniləşdirir (legitimləşdirir), bununla da tamaşaçılarda onlara qarşı müəyyən hüsn-rəğbət yaradır.

15. Qeyd etmək lazımdır ki, terrorçuluğa qarşı mübarizədə ikili standartlar olmamalıdır. Belə ki, terrorçuluğa qarşı mübarizədə ikili standartların tətbiq olunması mübarizəni səmərəsiz edir. Azərbaycan Respublikası və onun müttəfiqləri göstərilən məsələyə ümumi prinsiplərdən yanaşırlar. Terrorçulara, onların tərəfdarlarına və sponsorlarına sığınacaq verilməsi cinayətkarlara bəraət vermək deməkdir. Bu addımlar antiterror koalisiyası üzvlərinin birliyinə xələl gətirə və onlar arasındakı etibarlı münasibətləri poza bilər. Ancaq son illərin hadisələri onu göstərir ki, artıq bir çox ölkələr terrorçuların hədəfinə çevrilərək ikili standartların ölümcül təhlükəsi ilə üzləşmişlər.

16. Terrorçuluğa qarşı mübarizədə dünya ölkələrinin təcrübəsi göstərir ki, bu bəlaya qarşı səmərəli tədbirlər hüquq mühafizə və xüsusi xidmət orqanları ilə yanaşı, cəmiyyət tərəfindən də həyata keçirilməlidir. Belə ki, ekstremist təşkilatların fəaliyyətləri haqqında əhali arasında fəal izahat işləri aparılaraq, həmin qurumların ideologiyasının səhv olması ölkə vətəndaşlarına düzgün başa salınmalıdır. Burada əsas məsələ informasiya müharibəsini uduzmamaqdır.

17. Dissertasiyada beynəlxalq terrorçuluq cinayətinə qarşı regional mübarizə sistemlərinin daha səmərəli olması əsaslandırılır və Birləşmiş Millətlər Təşkilatının beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində fəaliyyəti prosesində regional sistemlərin işlək mexanizmindən istifadə olunması təklif olunur.

18. Bəzi hallarda inkişaf etməkdə olan ölkələrdə meydana gəlmiş terrorçu qrupların Qərbə qarşı yönəldilmiş hərəkətləri iki sivilizasiyanın toqquşması kimi qiymətləndirilir. Tədqiqat nəticəsində belə nəticə əldə edilmişdir ki, əslində, bu, heç də belə deyildir. Fikrimizcə, bu, ilk növbədə, qloballaşmanın dərinləşməsi ilə əlaqədar olaraq xammal ixrac edən ölkələrin sənayecə inkişaf etmiş ölkələrə qarşı müqavimətidir. Bu ölkələrin sənayecə inkişaf etmiş ölkələrin xammal bazası statusundan çıxa bilməmələri, eləcə də inkişaf etmiş ölkələrin onlar üçün məhvedici şəkildə formalaşmış beynəlxalq əmək bölgüsünü saxlamaları ilə əlaqədardır.

19. İslam fundamentalizmi ilə islam terrorçuluğunu eyniləşdirmək tamamilə səhv fikirdir. İslami dəyərlərin müfəssəl təhlili, müqəddəs Qurani-Kərimdən bir sıra surələrinin misal gətirilməsi nəticəsində belə bir qənaətə gəlinir ki, islam dini sülh dinidir və onu terrorçuluqla əlaqələndirmək sadəcə olaraq naşılıqdır.

20. Hər bir ölkənin öz dövlət büdcəsində anti-terror fəaliyyətinin həyata keçirilməsi məqsədilə nəzərdə tutulan tədbirləri reallaşdırmaq üçün maliyyə mənbəyinin nəzərdə tutulması məqsədəuyğundur.

21. Ölkədə fəaliyyət göstərən xüsusi xidmət və hüquq-mühafizə orqanlarının terrorçuluğa qarşı mübarizədə vahid yanaşması təmin olunmalı, onlar əməliyyat-axtarış, kəşfiyyat, profilaktik və güc xarakterli və s. əməliyyatları həyata keçirərkən eyni alqoritm üzrə işləməlidirlər. Bu orqanların anti-terror əməliyyatı keçirərkən taktiki hərəkətləri birgə qərargah təlimləri, komanda-qərargah kompleks operativ təlimləri, müxtəlif xidmət və təşkilatlar arasında qarşılıqlı əlaqə məsələləri nizama salmaları (reqlamentləşdirmələri) məqsədəmüvafiq olardı.

22. Terrora, bütövlükdə, sosioloji nöqteyi-nəzərdən yanaşılması daha məqsədəuyğun hesab edilməlidir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap olunmuşdur:**

1. Terrorçuluq, onun mahiyyəti və müasir təzahürləri. Odlar Yurdu Universitetinin elmi və pedoqoji xəbərləri. Bakı, 2008, № 26, s. 94-101.

2. Beynəlxalq terrorizm və onunla mübarizədə Azərbaycan xüsusi xidmət orqanlarının rolu. Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 23-cü buraxılış. Bakı, 2008, s. 425-428.

3. Beynəlxalq terrorizmin təşəkkülü və müasir dövrdə onun həyata keçirilmə üsulları. Bakı Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2008, № 4, s. 137-144.

4. Спецслужбы в борьбе с международным терроризмом (на примере Азербайджанской Республики). Научно-аналитический журнал Обозреватель. Москва, 2009, №3 (230), с. 50-57.

5. Beynəlxalq terrorçuluq cinayətinə qarşı regional mübarizədə əks-kəşfiyyatın rolu. «Heydər Əliyev və Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlıq siyasətinin əsas inkişaf tendensiyaları» adlı elmi-praktik konfransın materialları. Bakı, 2010, s. 171-175.

6. Azərbaycan Respublikasında beynəlxalq terrorçuluğa qarşı mübarizədə xüsusi xidmət orqanlarının əsas fəaliyyət istiqamətləri. İnsan hüquqları sahəsində Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlıq siyasəti: formalaşması və yeni inkişaf tendensiyaları mövzusunda elmi-praktik konfransın materialları, Bakı, 2010, s. 126-131.

7. Din ve terror. İstanbul, Punto, 2010, Ağustos, s. 32-37.

8. Beynəlxalq terrorçuluğa qarşı mübarizənin prinsip və metodları. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2010, № 2(22), s. 98-108.

9. Müasir beynəlxalq terrorçuluq və XXI əsrin əvvəllərində terror fəaliyyətinin forma və üsulları. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2010, № 3(23), s. 83-93.

10. Xüsusi xidmət orqanları və beynəlxalq terrorçuluğa qarşı onların mübarizə üsulları. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2010, № 4(24), s. 86-95.

11. Правовое обеспечение борьбы с международным терроризмом в Азербайджанском Республике. Наука і Правоохорона (Украина) , 2010, №4, с. 55-63.

12. Борьба с терроризмом в условиях глобализации. Информацианный бюллетен Антитеррористиского центра СНГ. Москва, №14, с. 16-24.

13. Борьба спецслужб с международным терроризмом на современном этапе. «Содружество независимых государств антитеррорический центр» информацианный бюллетен, Москва, 2012, № 18, с. 12-19.

14. Beynəlxalq terrorçuluğa qarşı mübarizədə xüsusi xidmət orqanlarının fəaliyyətinin prinsip və xüsusiyyətləri. Monoqrafiya. Bakı, “Çaşıoğlu”, 2010, 272 s.

15. Features and principles of intelligence services in fighting against International Terrorism. Bakı, “Çaşıoğlu”, 2011, 314 p.

16. Спецслужбы в борьбе с международным терроризмом. Научный журнал Вестник Кавказского Международного Университета, №2, с.168-186.

17. Международный терроризм и роль спецслужб в борьбе с ним. Международный Азербайджанский журнал “Наследие Heritage”, 2011, № 2(50), с. 22-26.

18. Qlobal beynəlxalq cinayət kimi beynəlxalq terrorçuluğa qarşı mübarizənin mühüm xüsusiyyətləri və əsas istiqamətləri. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2013, № 4 (36), s. 68-75.

19. Важные правовые аспекты борьбы с международным терроризмом. Право і суспільство, 2014, №6-2, с. 243-249.



## РЕЗЮМЕ

Диссертационная работа Хафиза Магеррам оглы Мусаева на тему «Роль органов специальных служб (разведки и контрразведки) в борьбе с международным терроризмом как глобальным международным преступлением», представленная на соискание учёной степени доктора философии по юридическим наукам по специальности 5603.01 – «Международное право; права человека», является актуальным, самостоятельным, творческим и завершённым исследованием. Работа имеет очень важное значение для анализа теоретических и практических вопросов возникновения международного терроризма, соотношения норм международного и внутригосударственного законодательства в этой сфере. В диссертационной работе отмечается, что особую опасность для современного мира представляет соединение практики локальных войн и терроризма в так называемые ассиметричные войны.

Диссертационная работа состоит из введения, трёх глав, заключения и списка использованной литературы.

Во введении диссертационной работы обосновывается актуальность темы исследования, отмечается предмет, цели и задачи исследования, теоретические и методологические основы, научная новизна и практическое значение исследования, определяются научные положения, представленные к защите.

В I главе диссертационной работы – «Международный терроризм как международное преступление является глобальной проблемой современности» рассматриваются квалифицирующие признаки международного преступления, концептуальное видение преступления международного права, политические, национальные, расовые и религиозные предпосылки возникновения международного терроризма, современный международный терроризм и новые формы и методы террористической деятельности в конце XX – в начале XXI века.

II глава диссертационной работы называется «Правовые аспекты борьбы против международного терроризма». Здесь рассматриваются принципы и методы борьбы против международного терроризма, органы специальных служб разных стран мира и их специфические и общие методы борьбы с международным терроризмом, роль контрразведки в борьбе с преступлением международного терроризма на региональном уровне.

В III главе диссертационной работы «Создание системы по борьбе с терроризмом в Азербайджанской Республике» рассматриваются вопросы тактики и стратегии органов специальных служб по борьбе с международным терроризмом в Азербайджанской Республике, правовое обеспечение борьбы против терроризма в Азербайджанской Республике и их совершенствование.

В заключительной части диссертационной работы в краткой форме изложены теоретические и практическое значение полученных автором результатов, важные предложения, и выводы полученные в результате исследований.

## SUMMARY

The dissertation of Hafiz Maharram oglu Musayev on "The Role of the Special Service (Intelligence and Counterintelligence) in the fight against international terrorism as a global international crime", submitted for the degree of Ph.D. in sciences of law, specialty 5603.01 –"International law; human rights" is a relevant, independent, creative and finalized research work. The work counts for a great deal for the analysis of theoretical and practical issues of international terrorism, the ratio of international and domestic legislation in this area. The dissertation states that the combination of practices of local wars and terrorism in the so-called asymmetrical warfare is a particular threat to the modern world.

The dissertation consists of the Introduction, three Chapters, Conclusion and List of used literature.

Scientific urgency, object, purposes and duties of the research, and its theoretical and practical basis, scientific innovation and practical importance, as well as provisions presented to discussion have been substantiated in the Introduction.

The Chapter I of the dissertation – "International terrorism as international crime is a global issue of our time» examines the qualifying attributes of an international crime, a conceptual vision for the crime of international law, political, national, racial, and religious background of international terrorism, the modern international terrorism and new forms and the methods of terrorist activities in the late XX and early XXI century.

The Chapter II of the dissertation is called "the legal Aspects of the struggle against international terrorism". It covers the principles and methods of struggle against international terrorism, the bodies of special services of different countries and their specific and general measures to combat international terrorism, the role of intelligence in combating the crime of international terrorism at the regional level.

The Chapter III of the dissertation "Development of a system to combat terrorism in Azerbaijan Republic" deals with tactics and strategies of special services to combat international terrorism in the Republic of Azerbaijan, legal support against terrorism in the Republic of Azerbaijan, and their improvement.

In the conclusion of the dissertation it is summarized the theoretical and practical importance of the results obtained by the author, the important suggestions and conclusions received as a result of researches.



**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***на правах рукописи***

**ХАФИЗ МАГЕРРАМ оглы МУСАЕВ**

# РОЛЬ ОРГАНОВ СПЕЦИАЛЬНЫХ СЛУЖБ (РАЗВЕДКИ И КОНТРРАЗВЕДКИ) В БОРЬБЕ С МЕЖДУНАРОДНЫМ ТЕРРОРИЗМОМ КАК ГЛОБАЛЬНЫМ МЕЖДУНАРОДНЫМ ПРЕСТУПЛЕНИЕМ

**Специальность: 5603.01 – «Международное право; права человека»**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по юридическим наукам**

**БАКУ – 2014**